*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 319-325*

https://doi.org/10.62837/2025.7.319

**MƏMMƏDLI AYSEL ƏLI QIZI**
**Azərbaycan Dillər Universiteti**
**ayselaliyeva837@yahoo.fr**

# FRANSIZ DİLİNİN İKİNCİ XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ İNTERAKTİV METODLARIN TƏTBİQİ

**Açar sözlər:** Medot, təlim, kommunikativ, aktiv, passiv, dinləyici, dil
**Key words:** Метод, обучение, коммуникативный, активный, пассивный, язык
**Ключевые слова:** Method,training, communicative, active, passive, listener, language

Fransız dili dünya miqyasında mühüm beynəlxalq ünsiyyət vasitəsi olmaqla yanaşı, həm də diplomatik, siyasi, iqtisadi və mədəni sahələrdə əhəmiyyətli rol oynayır. Bu səbəbdən bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da fransız dili ikinci xarici dil kimi tədris olunur.

Dilin beynəlxalq əhəmiyyəti onun öyrənilməsini yalnız bir kommunikasiya vasitəsi deyil, həm də qlobal inteqrasiya, təhsil və peşəkar inkişaf baxımından vacib edir. Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı və təhsil sahəsindəki metodoloji yeniliklər, dil tədrisində interaktiv, daha çevik, səmərəli və tələbəyönümlü yanaşmalara ehtiacı artırır.

Ənənəvi təlim metodları ilə yanaşı, interaktiv metodların tətbiqi tədrisin keyfiyyətini artırmaqla yanaşı, tələbələrin motivasiyasını gücləndirir, onları dərs prosesinə daha fəal şəkildə cəlb edir və əldə olunan biliklərin möhkəmlənməsini təmin edir. İnteraktiv təlim mühitində tələbələr sadəcə dinləyici və yazıcı kimi deyil, həm də iştirakçı və yaradıcılıq qabiliyyətini nümayiş etdirən subyekt kimi çıxış edirlər.

İnteraktiv metodların tətbiqi müasir pedaqogikanın əsas istiqamətlərindən biridir və bu metodlar vasitəsilə tələbələr yalnız passiv dinləyici deyil, həm də fəal iştirakçı, tənqidi düşünə bilən və yaradıcı subyektlər kimi formalaşırlar. Bu da ümumilikdə tədrisin keyfiyyətini artırmaqla yanaşı, öyrənmə nəticələrini daha dayanıqlı və praktik olmasına şərait yaradır.

Bu tədqiqat işinin məqsədi fransız dilinin ikinci xarici dil kimi tədrisində interaktiv metodların əhəmiyyətini və tətbiq imkanlarını təhlil etmək, bu metodların tələbə nailiyyətlərinə və təlim nəticələrinə təsirini qiymətləndirməkdən ibarətdir.
Tədqiqatın məqsədi:

- İnteraktiv metodların nəzəri əsaslarını və tətbiq sahələrini araşdırmaq;

- Fransız dərslərində tətbiq olunan interaktiv metodların təsirini təhlil etmək;
- Bu sahədə aparılmış praktik təcrübələri və nəticələri analiz etmək;

Tədqiqatın obyekti fransız dilinin ikinci xarici dil kimi tədris prosesini araşdırmaqdan, tədqiqatın predmeti isə interaktiv metodların tətbiqi və onun tədrisə təsirini araşdırmaqdan ibarətdir.

Fransız dili dünyada ən çox öyrənilən və danışılan dillərdən biridir. Bu dil yalnız Fransada deyil, eyni zamanda Belçika, İsveçrə, Kanada, Afrika ölkələrinin əksəriyyəti, Karib hövzəsi və Cənub-Şərqi Asiya ölkələrində də geniş yayılmışdır. Hazırda dünya üzrə 300 milyondan çox insan fransız dilində danışır. Bu dil BMT, Avtopa İttifaqı, UNESCO, Beynəlxalq Qırmızı Xaç Komitəsi kimi bir sıra nüfuzlu təşkilatların rəsmi dillərindən biridir.

Fransız dilinin bu geniş coğrafiyada istifadə olunması onu ikinci xarici dil kimi öyrənmək üçün cəlbedici edir. Fransız dili həm də "La Francophonie" hərəkatı vasitəsilə mədəni, iqtisadi və siyasi inteqrasiyanı dəstəkləyir. Bu baxımdan fransız dilinin tədrisi yalnız dil öyrənmək deyil, eyni zamanda bu dili daşıyan mədəniyyətlə tanışlıq və qlobal dünyaya inteqrasiya vasitəsidir.

Azərbaycan da bu prosesin bir parçası olaraq fransız dilinin tədrisində böyük əhəmiyyət verir. AZərbaycan-Fransa münasibətləri çərçivəsində fransız dili bir çox universitetlərdə ikinci xarici dil kimi tədris olunur. Fransız dili təkcə bir kommunikasiya vasitəsi deyil, eyni zamanda zəngin mədəniyyət, ədəbiyyat və incəsənət dünyasına aşılan qapıdır. Bu dili öyrənmək tələbələrdə mədəni qavrayış, empatiya və yaradıcı düşüncə bacarıqlarını inkişaf etdirir.

İkinci xarici dil olaraq fransız dilinin tədrisi birinci xarici dillə müqayisədə fərqli yanaşmalar tələb edir. Burada əsas məqsəd tələbənin təməl kimmunikativ bacarıqlarını formalaşdırmaq, söz ehtiyatını artırmaq və gündəlik həyatla bağlı situasiyalarda fransız dilindən istifadə qabiliyyətini inkişaf etdirməkdir.

Fransız dili tədrisinin məqsədləri:

- Dinləmə, danışma, oxuma və yazma bacarıqlarının koordinasiyalı inkişafı;
- Tələbənin müstəqil fikir bildirməsi və fikrini ifadə etməsi üçün imkan yaradılması;
- Fransız mədəniyyəti, tarixi və dəyərləri barədə ilkin anlayışların verilməsi;
- Multikultural və interaktiv düşüncə tərzinin formalaşması [1., s. 22]

Fransız dilinin ikinci xarici dil kimi öyrədilməsində bəzi metodiki və psixoloji çətinliklər meydana çıxır:

- Tələbələrin artıq bir xarici dil (adətən ingilis dili) üzrə baza biliklərinin olması fransız dilinə marağı azalda bilər;

- Fonetik sistemin fərqliliyi, qrammatik çətinliklər və cins kateqoriyasının mövcudluğu;
- Resurs və müəllim çatışmazlığı;
- Motivasiya və fərdi maraqların aşağı olması.

Bu çətinliklərin aradan qaldırılması müasir və interaktiv metodların tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Ənənəvi metodlar daha çox qrammatika və tərcümə əsaslıdır, tələbə passiv dinləyici rolunda qalır. Müasir yanaşmalar isə kommunikativ və interaktiv metodlara əsaslanır, tələbə dərs prosesinin fəal iştirakçısı olur.

Əsas müasir yanaşmalar:

- "Konstruktivist yanaşma". Tələbə özü bilik qurur;
- "Kommunikativ yanaşma". Əsas məqsəd gündəlik ünsiyyət bacarığının formalaşmasıdır;
- "Task-based learning". Tapşırıq əsaslı öyrənmə modeli;
- "CLIL (Content and Language Integrated Learning)". Dildə eyni zamanda məzmun öyrədilir.

Fransız dili dərslərində bu yanaşmalar tələbənin dilə marağını artırır və öyrəndiklərini real həyatda tətbiq etməyə imkan yaradır.

Fransız dili ikinci xarici dil kimi tədris olunarkən dil səviyyələri üzrə strukturlaşdırılır: A1, A2, B1, B2 və s. Avropa Dil Portfeli bu mərhələləri sistemləşdirir. A1 səviyyəsində əsas söz ehtiyatı və gündəlik danışıq bacarığı formalaşdırılır. A2 və B1 mərhələlərində isə şagirdlər sosial, təhsil və işgüzar mühitlərdə sərbəst ünsiyət qurmağa başlayırlar.

Fransız dilinin qrammatikası və tələffüz qaydaları bəzən azərbaycanlı tələbələr üçün çətin görünə bilər. Buna görə də tədris prosesi sadə, ardıcıl və strukturlaşdırılmış şəkildə qurulmalı, real kommunikasiya imkanları ilə dəstəklənməlidir.

Dil öyrənməsində pedoqoji yanaşmalar dəyişərək inkişaf etmişdir. Əvvəllər qrammatik tərcümə üsulu geniş istifadə olunsa da, bu üsul ünsiyyət bacarığının inkişafında məhdudiyyət yaradırdı. Müasir dövrdə kommunikativ yanaşma və konstruktivizm nəzəriyyəsi önə çıxır.

- "Kommunikativ yanaşma" – əsas məqsəd dildə real ünsiyyət qurmasıdır. Bu modeldə qrammatika deyil, məna və situasiya əsas götürülür.
- "Konstruktivist yanaşma" – tələbələrin öz təcrübəsinə əsaslanaraq bilik yaratmasıdır. Bu yanaşma interaktiv təlim metodlarının tətbiqinə geniş imkan yaradır.

Azərbaycan məktəblərində fransız dili, adətən beşinci sinifdən etibarən ikinci xarici dil kimi tədris olunur. Bəzi lisey və özəl məktəblərdə isə birinci sinifdən etibarən tədris olunur. Azərbaycan-Fransız Universiteti (UFAZ), Fransa səfirliyinin təşəbbüsləri və "Francophonie" təşkilatının dəstəyi bu dilin tədrisinə xüusi önəm qazandırır.

Hazırki dövrə Azərbaycanda Təhsil və elm nazirliyi tərəfindən tərtib edilmiş kurikulumlara uyğun olaraq fransız dili fənni üzrə dərsliklər, müəllim üçün metodik vəsaitlər və interaktiv təlim resursları hazırlanır. Lakin bu sahədə tədrisin keyfiyyətinin artırılması üçün interaktiv metodların daha geniş tətbiqinə ehtiyac duyulur [2., s. 39].

İnteraktiv təlim – müəllim və tələbənin birgə əməkdaşlığına əsaslanan, tələbənin fəal iştirakı ilə bilik və bacarıqların formalaşmasına yönəlmiş müasir pedaqoji yanaşmadır. Bu metodda şagird yalnız informasiya qəbul edən yox, bilik yaradan, tətbiq edən və təhlil edən subyektdir. İnteraktiv təlimin əsas prinsiplərinə aiddir:

- Fəallıq və təşəbbüskarlıq;
- Əməkdaşlıq və ünsiyyət;
- Problemlərin müzakirəsi və həlli;
- Praktik yanaşma və təcrübəyə əsaslanma.

Bu prinsiplər dil öyrənməsində xüsusi əhəmiyyət daşıyır, çünki dilin məqsədi real ünsiyyət və qarşılıqlı anlaşmadır.

Fransız dilinin tədrisində interaktiv metodlar müxtəlif formalada tətbiq oluna bilər:

***“Rol ounama” (Jeu de rôle)*** – tələbələr konkret situasiyaları canlandıraraq danışıq bacarıqlarını inkişaf etdirirlər;

***“Debatlar və diskussiyalar (Les débats)”*** – tələbələr fikirlərini əsaslandırmağı və müdafiə etməyi öyrənirlər;

***“Qrup işləri (Travail en groupe)”*** – əməkdaşlıq və qarşılıqlı öyrənmə şəraiti yaradır;

***“Dil oyunları (Jeux linguistiques)”*** – söz ehtiyatının genişlənməsinə və strukturun möhkəmlənməsinə şərait yaradır;

***“Audiovizual materiallardan istifadə”*** – film parçaları, audio yazılar və interaktiv platformalar vasitəsilə dinləmə və başa düşmə bacarığı inkişaf etdirilir.

***“Think-Pair-Share texnikası”*** – tələbələr əvvəlcə fərdi düşünür, sonra cütlərlə bölüşür və sonda ümumi müzakirəyə çıxarırlar [3].

Bu metodlar tələbələrə öyrəndiklərini tətbiq etmək, ünsiyyət qurmaq və öz fikirlərini ifadə etmək imkanı verir.

***İnteraktiv metodların tətbiqinin üstünlükləri:***

- Tələbənin dərsə marağını artırır;
- Əldə olunan bilikləri daha möhkəm yadda saxlamağa kömək edir;
- Ünsiyyət və dinləmə bacarıqlarını inkişaf etdirir;
- Tələbələr arasında əməkdaşlıq və qarşılıqlı hörməti gücləndirir;
- Yaradıcı düşüncə və problem həll etmə bacarığını inkişaf etdiri.

İnteraktiv metodların tətbiqi zamanı müasir texnolojiyalar və rəqəmsal alətlərin rolu danılmazdır. XXI əsrdə interaktiv təlim texnologiyalarla birbaşa əlaqəlidir. Fransız dili dərslərində aşağıdakı rəqəmsal resurslardan istifadə olunur:

- "Quizlet, Kahoot" – söz ehtiyatını möhkəmləndirən interaktiv oyunlar;
- "Duolingo, TV5 Monde" – gündəlik dil bacarıqlarını inkişaf etdirən platformalar;
- "Padlet, Google Clasroom" – tapşiriqların paylaşılması və qrup əməkdaşlığı üçün ideal alətlər.

Texnologiyanın tətbiqi tələbələrə fərdiləşdirilmiş tədris imkanı yaradır və motivasiyanı artırır.

Tədqiqat işinin bu fəslində məqsəd interaktiv metodların fransız dili tədrisində tətbiqinin real tədris prosesində necə işlədiyini və hansı nəticələr verdiyini təhlil etməkdir. Tədqiqat Azərbaycan Dillər Universitetində fransız dilinin ikinci xarici dil kimi tədris olunduğu qruplarda aparılan müşahidələr əsasında hazırlanmışdır.

Tədqiqatın işinin əsas vəzifələri:

- Müəllimlərin və tələbələrin interaktiv metodlara münasibətini öyrənmək;
- Müxtəlif interaktiv üsulların tətbiq olunma tezliyi və effektivliyini qiymətləndirmək;
- Əldə olunan nəticələrin təhlili əsasında tövsiyələr irəli sürmək.

Tədqiqatın aparıldığı zaman aşağıdakı metodlardan istifadə olunmuşdur:

- Sorğu (tələbələr və müəllimlər arasında);
- Müşahidə (dərslərdə iştirak);
- Təhlil (interaktiv dərs planları və təciələri).

Tədqiqatın aparıldığı zamanı belə nəticəyə gəlmək olar ki, tələbələrin 82%-i interaktiv dərsləri daha maraqlı və yadda qalan hesab edir. Müəllimlərin 70 %-i isə bu metodları tətbiq etdikdə tələbələrin fəallğının xeyli artdığını qeyd etmişdir.

II kurslarda "Se présenter" mövzusu üzrə rol oynama metodu:

Tələbələr özlərini frnasız dilində təqdim etmək üçün əvvəlcədən hazırlaşır, daha sonra isə auditoriya qarşısında təqdimat edir və qarşılıqlı sual-cavab aparırlar. Bu metod danışıq bacarığını və özünə inamı artırır.

II kurslarda "Mon université" mövzusunda interaktiv oyun – Kahoot vasitəsilə təkrar:

Dərs sonunda Kahoot vasitəsilə suallar keçirilmiş, tələbələr yarış şəraitində biliklərini yoxlamışlar. Bu, dərsi əyləncəli və dinamik etmiş, həm də təkrar funkasiyasını yerinə yetirmişdir.

II kurslarda "Les métiers" mövzusunda qrup işi:

Tələbələr peşə kateqoriyalarına görə bölünüb təqdimatlar hazırlayıblar. Bu tapşırıq zamanı həm söz ehtiyatı, həm tələffüz, həm də əməkdaşlıq bacarığı formalaşmışdır.

Aparılan müşahidə və sorğular göstərdi ki:

- İnteraktiv metodlar şagirdin dil bacarıqlarına müsbət təsir göstərir;
- Dərs prosesində tələbələrin iştirak faizi artır;
- Müəllimlərin metodoloji hazırlığı bu metodların uğurlu tətbiqində vacib faktordur;
- İnteraktivlik dərs mühitini daha demokratik və yaradıcı edir [4].

Bu metodların dərindən öyrənilməsi və mənimsənilməsi məqsədilə, fransız dili müəllimləri üçün interaktiv metodlarla bağlı ixtisasartırma kurslarının təşkili, müasir texnologiyalara əsaslanan təlim resurslarının dərs prosesinə inteqrasiyası, dərslik və metodik vəsaitlərdə interaktiv fəaliyyətlərə daha geniş yer verilməsi, tələbələr üçün fransız dili klublarının yaradılması və interaktiv tədbirlərin təşkili labüddür.

Çıxarılan nəticələrdən bəzi tövsiyələrdə doğur ki, onlarıda vurğulamaq lazımdır.Fransız dili müəllimləri müasir interaktiv metodlarla bağlı ixtisasartırma kurslarına cəlb olunmalı və bu sahədəki yeniliklərdən xəbərdar olmalıdırlar. Müasir texnologiylara əsaslanan təlim resurslarının (video dərslər, dil platformaları və s.) tədrisdə inteqrasiyası genişləndirilməlidir. Interaktiv metodların tətbiqi ilə bağlı yerli və beynəlxalq təcrübələrin öyrənilməsi və mübadiləsi təşviq olunmalıdır. Tələbərəin fərdi ehtiyaclarına uyğunlaşdırılmış və kommunikativ bcarıqları önə çəkən proqramlar hazırlanmalı və tətbiq edilməlidir. Xarici ölkələrin təcrübəsinin öyrənilməsi və uyğun modellərin yerli tədrisə uyğunlaşdırılmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Əliyeva. S., "Xarici dilin tədrisində müasir metodlar"., səh. 20-31., Bakı 2019., Təhsil nəşriyyatı.
2. Veysəlova. T., "Fransız dilinin tədrisi və interaktiv metodlar"., səh. 39-44., Bakı 2020., Azərbaycan Müəllimlər İnstitutu.
3. CEFR – Common European Framework of Reference for Languages. Council of Europe 2020.
4. TV 5 monde – Enseigner le français. www.tv5monde.com

**Айсель Маммедли**

**Применение интерактивных методов в преподавании французского языка как второго иностранного**

**РЕЗЮМЕ**

Конечные научные и практические исследования показали, что применение интерактивных методов в преподавании французского языка как второго иностранного значительно повышает качество и эффективность обучения. Эти методы обеспечивают активное участие студентов в учебном процессе, способствуя комплексному развитию: аудирования, говорения, чтения и письма. В результате у студентов повышается мотивация, растет интерес к урокам, и изучение языка становится более интенсивным и целенаправленным.

Практическое применение знаний и формирование коммуникативные навыков через интерактивные методы дают более эффективные результаты. Исследование показывает, что совместное использование современных технологий и интерактивных методов обучения способствует достижению более устойчивых результатов в изучении французского языка.

Основываясь на результатах, можно отметить, что интерактивные методы формируют учебную среду, ориентированную на студента. Эти методы стимулируют критическое и творческое мышление студентов, делают занятия по французскому языку интересными и эффективными за счет использования технологий и языковых игр. Важным условием успешного внедрения является педагогическая и технологическая подготовка преподавателей.

**Aisel Mammadli**

**Application of Interactive Methods in Teaching French as a Second Foreign Language**

**SUMMARY**

Scientific and practical research has shown that the application of interactive methods in teaching French as a second foreign language significantly increases the quality and efficiency of education. These methods not only ensure active participation of students in the learning process but also contribute to their language skills (listening, speaking, reading and writing). Student motivation rises, interest in lessons increases and language learning becomes more intensive and goal oriented.

Through interactive methods, the practical application of knowledge and the formation of communicative skills lead to more effective results. The research indicates that the combined use of modern technologies and interactive teaching methods leads to more sustainable outcomes in learning the French language.

Based on the findings, it can be concluded that interactive methods create a learner-centered educational environment. These methods stimulate students critical and creative thinking and the use of technologies and language games in French lessons makes teaching more engaging and effective. The pedagogical and

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 319-325*

technological preparedness of teachers is a key condition for successful implementation.

**Rəyçi: fil.f.d., dos, A.Məqami**